*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 475-480*
https://doi.org/10.62837/2024.3.475

**ASLANOVA ZÜMRÜD RAFIQ QIZI**
*Bakı Slavyan Universiteti*
*Bakı şəhəri, S.Rüstəm küç., 33.*
*Email:aslanovazumrud171@gamil.com*

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRƏ BİLİK, BACARIQ VƏ VƏRDİŞLƏRİN AŞILANMASINDA QİYMƏTLƏNDİRMƏNİN ROLU

**Açar sözlər:** təhsil, kurikulum, söz sənəti, qiymətləndirmə, şəxsiyyətin formalaşması, bilik, bacarıq, vərdişlər;

**Keywords:** education, curriculum, the art of words, evaluation, personality formation, knowledge, skill, habits;

**Ключевые слова**: образование, учебный план, наука о слове, оценка, формирование личности, знание, навык, привычки.

Ədəbiyyat ruhu dincəldən, insanı cilalayan, düşüncəni aydınlaşdıran, həyata fərqli tərəflərdən də baxmağı öyrədən söz sənətidir. O elə bir sənətdir ki, bəzən bir neçə cümlə, bir neçə şeir parçası insanın bütöv bir ömrünü ifadə etməyə bəs edir. Bəzən də özündən əvvəlki insanların nələrdən keçdiyini, nələr yaşadığını öyrənməklə bərabər hiss etmək üçün də bir vasitədir. Əbu Turxanın da dediyi kimi “Bədii əsərin gücü nə vaxtsa bir nəfər tərəfindən yaşanmış duyğunun minlərlə adam tərəfindən dönə-dönə yenidən yaşanmasındadır” [4]. Təsadüfü deyil ki, bu qədər böyük əhəmiyyətə malik ədəbiyyat orta məktəblərdə müstəqil fənn kimi tədris edilir. Şagirdlər milli əbiyyatımızı oxuyaraq öyrənməklə bərabər dünya ədəbiyyatı klassikləri ilə də tanış olurlar. Nəticədə dünyagörüşü formalaşmış, düşünməyi bacaran, müstəqil şəkildə fikrini ifadə etməyi bacaran gənclər yetişir. Söz ehtiyatının çoxluğu onlara icazə verir ki, heç kimdən aslı olmadan, sıxılmadan özlərini ifadə edə bilsinlər. Bütün bunlar bir fənn kimi ədəbiyyatın tədrisi metodikasının qarşısında duran vəzifədir.

Ədəbiyyatın əsl mahiyyətini dərk etdiyimizə görə tədris və metodika sözlərinin mənalarına diqqət yetirək. “Tədris sözü isə ərəbcədəndir, mənası dərs vermə, dərs öyrətmə deməkdir. Pedaqoji termin kimi "şagirdlərə təhsil aldıqları müddətdə bilik, bacarıq, tərbiyə vermək məqsədi daşıyan müəllimin professional fəaliyyəti; müəllimin öyrətmək məqsədini reallaşdırması üçün fəaliyyəti, biliklərin tətbiq edilməsi" mənalarını daşıyır” [5].

Metodika isə kurs, yol deməkdir. Tədris ediləcək fənnin öyrədilməsi yollarıdır. Yəni ədəbiyyatın tədrisi metodikası dedikdə bu fənnin düzgün şəkildə öyrədilməsi yollarını, bilik, bacarıq və vərdişlərin aşılanması üsulları nəzərd tutulur. Qeyd edək ki, dərs materialını danışmaq, anlamaq hələ onu tam dərk etmək demək deyil. Bunun üçün müəllim məqsədyönlü şəkildə çalışır. Şagirdi düşünməyə vadar edərək, keçirilmiş mövzunun beyində həkk edilməsinə çalışır. Həmçinin hadisələr arasında səbəb nəticə əlaqələrini üzə çıxarmağa kömək edir. Bu zaman şagird mövzunu özününküləşdirərək biliyi formalaşdırır, onun araşdırmağa, təhlil etməyə, yeni

mövzuları ortaya çıxarmağa başladıqda isə bacarıqlar əmələ gəlir. Ümumiyyətlə təlimin bu mərhələsində yeni biliklər şagirdin bazasında olanlarla əlaqələndirilir. Şagird ümumiləşdirmə, sinxuronlaşdırma apararaq ümumi bir nəticəyə gəlir. Həmçinin şagird müəllimin ünvanladığı suallara da cavab tapmağı öyrənməlidir. Bunun üçün müəllim də dərsdə tez-tez çaşdırıcı suallar verərək problemi stiuasiya yaratmalıdır. Problemlə qarşılaşan beyin düşünməyə, sorğulamağa başlayır. Bu zaman şagirdin yaradıcı təfəkkürü də inkişaf edir, dərs düşünülərək dərk edilir. Hər problem aradan qaldırıldıqca yaxşı olar ki, müəllim situasiyanı bir az daha mürəkkəbləşdirsin, suallar nisbətən qəlizləşsin. Asan problemləri aradan qaldırmağı öyrənən beyin, çətin sualların da öhdəsindən gəlmək üçün çalışsın, beynin məhsulunu ortaya qoymağı bacarsın. Biliklərə yiyələnərək problemləri aradan qaldırmağı bacaran şagirdin özünə qarşı güvəni artır, öz gücünə inanmağa başlayır, müstəqil şəkildə fəaliyyət göstərməyə başlayır.

Ədəbiyyat dərslərində şagirdlərdə bilik, bacarıq və vərdişlərin yaradılmasında qiymətləndirmənin xüsusi rolu var. “Məktəbdaxili qiymətləndirmə dövlət təhsil standartlarının monitorinqini həyata keçirir, bilik, bacarıqları məzmun standartlarına əsasən ölçür və təlim nailiyyətlərini qiymətləndirir” [3.18]. Qiymətləndirmə şəffaf, ədalətli, uzunmüddətli və ardıcıl aparılan bir prosesdir. Əsas mahiyyəti bundan ibarətdir ki, tədris edilən fənlə bağlı şagird gündəlik, aylıq və illik olaraq hansı bilik, bacarıq və vərdişlərə yiyələnməyi bacardığı aydınlaşdırılsın, nələrdə hələ də çətinlik çəkdiyi müəyyənləşdirilsin. Ümumiyyətlə təhsildə qiymətləndirmənin əsas məqsədi təhsilin keyfiyyətini, səviyyəsini yüksəltməkdir. Bu da öz növbəsində milli rifahın, əqli keyfiyyətin yüksəldilməsi deməkdir. Ədəbiyyat dərsində müəllimin qarşısında duran əsas məqsəd ən düzgün qiymətləndirmədən istifadə edərək şagird uğurunu dəyərləndirməkdir. Bu zaman müəllim zəif nəticə göstərən şagirdlərə daha artıq diqqət ayıraraq onların da yüksək nəticə göstərməsinə çalışa bilər. Qiymətləndirmə digər tərəfdən də valideynlər üçün məlumant xarakteri daşıyır. Valideyn övladının dərs zamanı nələri öyrənə bildiyinə şahid olur. Bir digər tərəfdən isə qiymətləndirmə kurikulumun özünü qiymətləndirmədir. Yeni təhsil sistemi olan kurikulum hələ də inkişaf etmə mərhələsindədir. Buna görə də onda görülən hər bir qüsur tez bir zamanda aradan qaldırılmalıdır. Qiymətləndirmə zamanı görülən hər bir nöqsan hələ də tam formalaşmamış təhsil sistemindn xəbər verir.

Onuncu sinif ədəbiyyat dərsində müəllim “Kitabi Dədə Qorqud” eposunun Salur Qazanın evinin yağmalandığı boyu keçərkən şagirdlərdən əvvəlki mövzu olan şifahi xalq ədəbiyyatından suallar verir. Bu onların əvvəlki mövzunu necə yadda saxladıqlarını öyrənməklə bərabər yeni mövzunun da əlaqələndirilməsi ilə yaxşı mənimsədilməsinə xidmət. Bu zaman şagirddə əzbərləmə qabiliyyəti bir kənarda qalaraq dərk edərək bilik formalaşır. Dərslikdən bir parçanı oxuyaraq: “Epos əsrlər boyu xalq arasında şifahi olaraq yaşadılmış, sonralar yazıya köçürülərək “Kitabi Dədə Qorqud” adlandırılmışdır. Eposun ilk yaradıcı və söyləyicisi ozanlar ozanı Dədə Qorqud olmuşdur. Canlı ifadan yazıya alınmış dastan yazılı epos hesab edilir. Oğuz elinin böyük bilicisi kimi hörmət və nüfuz sahibi olan Dədə Qorqud tarixi şəxsiyyət osayılsa da, onun haqqında çoxlu əfsanə və rəvayətlər də

yaradılmışdır"[2.56] müəllim sual ünvanlaya bilər ki, "sizcə ozan kimə deyilir?, Oğuz eli deyildikdə hansı ərazilər nəzərdə tutulur?. Bu zaman şagird düşünməyə, axtarmağa çalışır. Kitabdakı nəzəri bilikləri bir kənara qoyub yeni biliklər axtarışına çıxır. Müəllim ona hazır materialı təqdim etmir, düşünməyə vadar edir. Nəticədə sualların cavablarını özü təkbaşına tapan şagird həm biliklənir, həm də bacarıqları formalaşır. Bundan sonrakı mərhələdə isə şagird daim yeni biliklər axtarışında olduğu üçün həm bilik əldə edir, həm bacarıq formalaşır, həm də bunlar özlüyündə vərdişə çevrilir. Ədəbiyyat da əsil misyasını yerinə yetirmiş olur.

"Düzgün həyata keçirilmiş qiymətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin şagirdlərin tələbatına nə dərəcədə cavab vernəsi, habelə kurikulumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməyə imkan verir"[1.82].

## Ədəbiyyat

**1.** Əhmədov A., Şərifov T., Abbasov Ə., Şagird naliyyətlərinin qiymətləndirilməsi, 2008
2. Ümumi təhsil müəssisələrinin sinifləri DƏRSLİK 10-cu üçün fənni üzrə, 208 səh
3. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları (metodik tövsiyə). Bakı: "CN POLİGRAFİYA", 2023, 100 səhifə
4. https://www.testbook.az/proverb/aphorismtype/41/edebiyyat-haqqinda-aforizmler)
5. http://www.portal.portalcp.cpanel.edu.az/index.php?r=glossary/index&id=1 &mid=&letter=T&lang=az

## Ədəbiyyat dərslərində şagirdlərə bilik, bacarıq və vərdişlərin aşılanmasında qiymətləndirmənin rolu

### Xülasə

**Aslanova.Z**

Ədəbiyyat dərslərində bilik, bacarıq və vərdişlərin formalaşdırılması əsas məqsəddir. Bilik verən müəllim həm də şəxsi keyfiyyətlər formalaşdırır. Müəllim şəxsiyyətə çevrilmə prosesində yaxından iştirak edir. Bildiyimiz kimi, hamımız dünyaya fərd olaraq gəlirik. Zaman keçdikcə özünəməxsus bilik, bacarıq və vərdişlər əldə edərək şəxsiyyətə çevrilir. Ədəbiyyat cəmiyyətə faydalı, danışıq qabiliyyətinə malik şəxsiyyətlər yetişdirməyə xidmət edir. Bu da onun ən böyük vəzifəsidir. Ədəbiyyat dərslərində isə qiymətləndirmə önəmli faktordur. Qiymətləndirmə kəmiyyətin göstəricisidir. Düzgün qurulmuş qiymətləndirmə parlaq gələcəyi olan gənclərdən xəbər verir

Ədəbiyyat dərsləri, tələbələrə sənət, düşünmə, vərdişlər və mənəvi inkişaf üzərində işləmək imkanı verir. Bu dərslər tələbələrin mətnləri anlamaq, müzakirə etmək və öz fikirlərini ifadə etmək bacarığını inkişaf etdirməyə kömək edir.

Qiymətləndirmə prosesi, tələbələrin məlumat və anlayış səviyyəsini ölçmək, onların inkişafını dəstəkləmək və öz öyrənmə proseslərini idarə etmək üçün əhəmiyyətli bir vasitədir.

Ədəbiyyat dərslərində qiymətləndirmə, tələbələrin mətnləri anlama səviyyəsini və onların əsas anlayışını müəyyənləşdirməyə kömək edir. Müxtəlif qiymətləndirmə formaları, beləcə testlər, müzakirələr, məlumat işləmə və yaratıcı məlumat işləmə tapşırıqları vasitəsilə tələbələrin mətnləri nezarət etməsini və analiz etməsini təmin edir.

Həmçinin, qiymətləndirmə, tələbələrin öz fikirlərini ifadə etmə və məlumatları təsdiq etmək üçün müəyyən edici bir vasitədir. Müzakirələr, yazılı və şifahi tədqiqatlar, məqalələr və ya yaradıcı yazılı işlər kimi tapşırıqlar, tələbələrin öz fikirlərini ifadə etmək və argümanlarını müdafiə etmək bacarığını inkişaf etdirmələrinə kömək edir.

Nəhayət, qiymətləndirmə prosesi, tələbələrin öz öyrənmə proseslərini idarə etmələrinə kömək edir. Öyrəncilər qiymətləndirmə nəticələrinə əsasən öz güclü və zəif tərəflərini müəyyən edərək öz öyrənmə planlarını düzəltmək imkanına malik olurlar.

Nəticə olaraq, ədəbiyyat dərslərində qiymətləndirmənin rolu tələbələrin məlumat, bacarıq və vərdişlərini inkişaf etdirməkdə, öz öyrənmə proseslərini idarə etməkdə və öz fikirlərini ifadə etməkdə vacibdir. Bu, onların sənətə, düşünməyə və özünə ifadə etməyə dair keyfiyyətli bir təcrübə qazanmalarına kömək edir.

## THE ROLE OF LITERATURE IN IMPARTING KNOWLEDGE, SKILLS AND HABITS TO STUDENTS

## SUMMARY

**ASLANOVA ZUMRUD**

Formation of knowledge, skills and habits in literature classes is the main goal. A teacher who imparts knowledge also forms personal qualities. The teacher is closely involved in the process of becoming a person. As we know, we all come into the world as individuals. Over time, acquiring unique knowledge, skills and habits, it becomes a personality. Literature serves to educate individuals who are useful to society and able to speak. This is his biggest duty. Assessment is an important factor in literature classes. Pricing is an indication of quantity. A well-constructed assessment indicates young people with a bright future.

Literature classes allow students to work on art, thinking, habits, and spiritual development. These lessons help students to develop their ability to understand texts, discuss and express their own ideas. The assessment process is an important tool for measuring students' knowledge and understanding, supporting their development and managing their own learning.

Assessment in literature classes helps to determine students' level of understanding of texts and their underlying understanding. It enables students to

monitor and analyze texts through various forms of assessment, such as tests, discussions, data processing and creative data processing tasks.

Also, assessment is a defining tool for students to express their opinions and validate information. Assignments such as debates, written and oral research, essays, or creative writing work help students develop their ability to express their opinions and defend their arguments.

Finally, the assessment process helps students manage their own learning. Based on the assessment results, students have the opportunity to adjust their learning plans by identifying their strengths and weaknesses.

In conclusion, the role of assessment in literature classes is important in developing students' knowledge, skills and habits, managing their own learning and expressing their own ideas. This helps them gain a quality experience of art, thinking and self-expression.

## РОЛЬ ЛИТЕРАТУРЫ В ПЕРЕДАЧЕ ЗНАНИЙ, УМЕНИЙ И ДОСТИЖЕНИЙ УЧАЩИМСЯ

### РЕЗЮМЕ

**АСЛАНОВА З.**

Формирование знаний, умений и навыков на занятиях литературой является основной целью. Учитель, который передает знания, формирует и личностные качества. Учитель принимает самое активное участие в процессе становления личности. Как мы знаем, все мы приходим в мир как личности. Со временем, приобретая уникальные знания, навыки и привычки, он становится личностью. Литература служит воспитанию людей, полезных обществу и умеющих говорить. Это его самая большая обязанность. Оценка является важным фактором на уроках литературы. Цена является показателем количества. Грамотно построенная оценка указывает на молодёжь со светлым будущим.

Уроки литературы позволяют учащимся работать над искусством, мышлением, привычками и духовным развитием. Эти уроки помогают учащимся развить способность понимать тексты, обсуждать и выражать свои собственные идеи. Процесс оценки является важным инструментом измерения знаний и понимания учащихся, поддержки их развития и управления собственным обучением.

Оценивание на уроках литературы помогает определить уровень понимания учащимися текстов и лежащее в их основе понимание. Это позволяет учащимся отслеживать и анализировать тексты с помощью различных форм оценки, таких как тесты, дискуссии, обработка данных и творческие задачи по обработке данных.

Кроме того, оценивание является определяющим инструментом, позволяющим учащимся выражать свое мнение и проверять информацию. Такие задания, как дебаты, письменные и устные исследования, эссе или

творческие письменные работы, помогают учащимся развивать способность выражать свое мнение и защищать свои аргументы.

Наконец, процесс оценки помогает учащимся управлять собственным обучением. По результатам оценивания студенты имеют возможность корректировать свои учебные планы, выявляя свои сильные и слабые стороны.

В заключение отметим, что роль оценивания на уроках литературы важна для развития знаний, навыков и привычек учащихся, управления собственным обучением и выражения собственных идей. Это помогает им получить качественный опыт искусства, мышления и самовыражения

**Redaksiyaya daxil olma tarixi: 15.03.2024**
**Çapa qəbul olunma tarixi: 30.03.2024**
***Rəyçi: dos. S.Qafarova***
**tərəfindən çapa tövsiyə olunmuşdur**